# Ödəniş sərəncamının icrasından əvvəl məlumatlandırma

| | | |
|---|---|---|
| 1 | Ödəniş sərəncamının icra edilməsi üçün tələb olunan məlumatlar və ya unikal eyniləşdirici | Qüsurlu ödəniş sənədləri icraya qəbul edilmir.<br>Ödəniş sənədi aşağıdakı hallarda qüsurlu sayılır:<br>a) “Ödəniş əməliyyatlarının aparılmasına və ödəniş alətlərinə dair Qayda”nın 3.7-ci bəndində göstərilmiş müddət keçdikdə;<br>b) ödəniş sənədinin rekvizitlərində uyğunsuzluq olduqda;<br>c) ödənişin təyinatı və əsası göstərilmədikdə;<br>d) rəqəmlə və yazı ilə göstərilən məbləğlər arasında uyğunsuzluq olduqda;<br>e) üzərində düzəliş və ya pozulmalar edildikdə;<br>f) nüsxələr arasında uyğunsuzluq olduqda;<br>g) ödəniş sənədində və imza nümunələri vərəqəsində qeyd olunmuş imzalar arasında uyğunsuzluq olduqda;<br>h) möhür olmadıqda və ya uyğun gəlmədikdə (imza və möhür nümunələri vərəqəsində nəzərdə tutulduğu halda). Bu tələb müvəqqəti olaraq möhür olmadan ödəniş sənədlərinin rəsmiləşdirildiyi hallara şamil edilmir.<br>Ödəniş sərəncamının düzgün verilməsi və ya icra edilməsi üçün unikal eyniləşdirici:<br>a) Ad, soyad, ata adı<br>b) FIN kod<br>c) Seriya nömrəsi<br>d) Mobil nömrə<br>e) Doğum tarixi<br>f) Hesab nömrəsi<br>g) Kartın pan nöməsi |
| 2 | Ödəniş sərəncamının icra müddəti | Bank ödəniş sərəncamı qüsurlu olmadıqda, habelə Müştəri ilə bağlanılmış müqavilə ilə müəyyən edilmiş bütün şərtlər yerinə yetirildikdə avtorizə edilmiş ödəniş sərəncamını icraya qəbul edir.<br>Avtorizə edilmiş ödəniş sərəncamı əməliyyat günündən sonra təqdim olunduqda ödəniş sərəncamı növbəti əməliyyat günü icraya qəbul edilmiş hesab olunur.<br>Bank ödəniş sərəncamını icraya qəbul etdiyi vaxtdan növbəti iş günündən gec olmayaraq icra edir.<br>Ödəniş sərəncamında həmin sərəncamın icrası üçün fərqli müddət razılaşdırıla bilər. Razılaşdırılan müddət ödəniş sərəncamının icra müddəti hesab edilir və həmin gün icra edilir. Bu müddət qeyri-iş gününə düşdükdə, ödəniş sərəncamının icra müddəti növbəti iş günü hesab edilir.<br>Ödəniş xidmətinin ödəniş terminalları vasitəsilə göstərildiyi hal istisna olmaqla, digər hallarda Müştərinin xeyrinə Banka daxil olan pul vəsaiti həmin əməliyyat günü Müştərinin ödəniş hesabına mədaxil edilir və (və ya) pul vəsaitinin istifadəsinə imkan yaradılır. Hesaba mədaxil edilməli olan pul vəsaitinin valyutası hesabda olan məbləğin valyutasından fərqli olduqda pul vəsaitinin hesaba mədaxil edilməsi müddəti Müştəri ilə Bank arasında bağlanılmış müqavilə ilə tənzimlənir. |

| | | |
|---|---|---|
| | | Ödəniş xidmətləri ödəniş terminalları vasitəsilə göstərdikdə ödəyicidən qəbul olunmuş pul vəsaiti 5 (beş) iş günündən gec olmayaraq vəsait alanın ödəniş hesabına köçürülür. |
| 3 | Ödəniş xidmətinin göstərilməsi üçün tutulan haqlar | Bankın müvafiq əməliyyatın aparıldığı günə qüvvədə olan tarifləri (Bankın rəsmi internet səhifəsi www.abb-bank.az-da yerləşdirilmişdir) və/və ya müvafiq səlahiyyətli orqanının qərarına uyğun olaraq müəyyən olunan tarif dərəcələri ilə tənzimlənir. |
| 4 | Valyuta mübadiləsi məzənnəsi | Bankın müvafiq əməliyyatın aparıldığı günə qüvvədə olan valyuta mübadilə məzənnələri ilə (Bankın rəsmi internet səhifəsi www.abb-bank.az-da yerləşdirilmişdir) tənzimlənir. |
| 5 | Nəzarət orqanının əlaqə məlumatları | **Azərbaycan Respublikasının Mərkəzi Bankı:**<br><br>Qaynar xətt: +99412 966;<br>Telefon nömrəsi: +99412 4935058;<br>Faks: +99412 493 55 41<br>Elektron poçt ünvanı: mail@cbar.az<br><br>**Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi üzrə:**<br><br>Qaynar xətt: 2244;<br>WhatsApp xətti: +99460 400 22 44. |